# “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisəsinin, uşaq evləri sosial xidmət müəssisəsinin, açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin, məktəbəqədər təhsil müəssisəsinin, ümumtəhsil məktəbinin, ilk peşə-ixtisas təhsili müəssisəsinin, orta ixtisas təhsili müəssisəsinin, ali təhsil müəssisəsinin, xüsusi təhsil müəssisəsinin və ailə tipli kiçik qrup evinin nümunəvi nizamnamələrini üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

~~2.1. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 4.1-ci *və 6.3-cü maddələrində* nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi icra hakimiyyəti orqanı həyata keçirir;~~**[1]**

*2.1-1. həmin Qanunun 6.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;***[2]**

2.2. həmin Qanunun 4.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan *Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi bölgü üzrə bu orqana bilavasitə tabe olan vergi orqanları, habelə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi həyata keçirirlər*; **[3]**

2.3. həmin Qanunun 6.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini *Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının Prezidenti, digər hallarda* Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir; **[4]**

~~2.4. həmin Qanunun 6.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi həyata keçirirlər.~~**[5]**

*2.5. bu Fərmanın 2.7-ci bəndi və Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi digər hallar istisna olmaqla, həmin Qanunun 4.1-ci maddəsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:***[6]**

*2.5.1. ali təhsil müəssisələrinə münasibətdə – Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi icra hakimiyyəti orqanı;*

*2.5.2. orta ixtisas təhsili müəssisələrinə münasibətdə – Azərbaycan Respublikasının Nazirlər Kabineti;*

*2.5.3. digər təhsil, habelə sosial xidmət və tibb müəssisələrinə münasibətdə – Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, tabeliyində olacağı icra hakimiyyəti orqanı;*

*2.5.4. digər publik hüquqi şəxslərə münasibətdə – Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi icra hakimiyyəti orqanı;*

*2.6. bu Fərmanın 2.7-ci bəndi və Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi digər hallar istisna olmaqla, həmin Qanunun 6.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:*

*2.6.1. ali təhsil müəssisələrinə münasibətdə – Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti;*

*2.6.2. bu Fərmanın 2.5.2-ci və 2.5.3-cü yarımbəndlərində qeyd olunan publik hüquqi şəxslərə münasibətdə – tabeliyində olduğu icra hakimiyyəti orqanı;*

*2.6.3. digər publik hüquqi şəxslərə münasibətdə – Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi icra hakimiyyəti orqanı;*

*2.7. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin təklifi əsasında onların tabeliyində yaradılması nəzərdə tutulan publik hüquqi şəxslərə münasibətdə:*

*2.7.1. həmin Qanunun 4.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:*

*1. ali təhsil və orta ixtisas təhsili müəssisələrinə münasibətdə, müvafiq olaraq, bu Fərmanın 2.5.1-ci və 2.5.2-ci yarımbəndlərində müəyyən edilmiş orqanlar;*

*2. Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, müvafiq olaraq, digər təhsil müəssislərinə münasibətdə – Azərbaycan Respublikasının Təhsil Nazirliyi, sosial xidmət müəssisələrinə münasibətdə –Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, tibb müəssisələrinə münasibətdə – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi;*

*3. digər publik hüquqi şəxslərə münasibətdə – Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi icra hakimiyyəti orqanı;*

*2.7.2. həmin Qanunun 6.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:*

*1. ali təhsil müəssisələrinə münasibətdə – Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti;*

*2. digər təhsil müəssislərinə münasibətdə – Azərbaycan Respublikasının Təhsil Nazirliyi, sosial xidmət müəssisələrinə münasibətdə – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, tibb müəssisələrinə münasibətdə – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi;*

*3. digər publik hüquqi şəxslərə münasibətdə – Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi icra hakimiyyəti orqanı;*

*2.8. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyində yaradılan publik hüquqi şəxsin strukturunu təsdiq etmək səlahiyyəti, habelə "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2.3-cü, 8.2.4-cü (icra orqanlarının yaradılması, onların səlahiyyətlərinin müəyyənləşdirilməsi səlahiyyətləri istisna olmaqla), 8.2.5-ci və 8.2.6-cı maddələrində göstərilən səlahiyyətlər dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə aiddir.*

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 fevral 2016-cı il

№ 759

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

**1.** 14 iyul 2017-ci il tarixli **1533** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 23 iyul 2017-ci il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1343)**
**2.** 17 yanvar 2018-ci il tarixli **1788** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti 18 yanvar 2018-ci il, № 12, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 1, maddə 44)**
**3.** 6 iyul 2018-ci il tarixli **172** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 7 iyul 2018-ci il, № 148, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №7, I kitab, maddə 1458)**
**4.** 30 avqust 2018-ci il tarixli **255** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 31 avqust 2018-ci il, № 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 8, maddə 1705)**

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

**[1]** 14 iyul 2017-ci il tarixli **1533** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 23 iyul 2017-ci il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7,**

**maddə 1343)** ilə 2.1-ci bənddə "**maddəsində**" sözü "**və 6.3-cü maddələrində**" sözləri ilə əvəz edilmişdir.

30 avqust 2018-ci il tarixli **255** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 31 avqust 2018-ci il, № 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 8, maddə 1705)** ilə 2.1-ci bənd ləğv edilmişdir.

**[2]** 14 iyul 2017-ci il tarixli **1533** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 23 iyul 2017-ci il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1343)** ilə 2.1-1-ci bənd əlavə edilmişdir.

**[3]** 17 yanvar 2018-ci il tarixli **1788** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti 18 yanvar 2018-ci il, № 12, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 1, maddə 44)** ilə 2.2-ci bənddə "**Respublikasının Vergilər Nazirliyi həyata keçirir**" sözləri "**Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi bölgü üzrə bu orqana bilavasitə tabe olan vergi orqanları, habelə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi həyata keçirirlər**" sözləri ilə əvəz edilmişdir.

**[4]** 6 iyul 2018-ci il tarixli **172** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 7 iyul 2018-ci il, № 148, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №7, I kitab, maddə 1458)** ilə 2.3-cü bəndinə "**səlahiyyətlərini**" sözündən sonra "**Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının Prezidenti, digər hallarda**" sözləri əlavə edilmişdir.

**[5]** 14 iyul 2017-ci il tarixli **1533** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 23 iyul 2017-ci il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1343)** ilə 2.4-cü bənd ləğv edilmişdir.

**[6]** 30 avqust 2018-ci il tarixli **255** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 31 avqust 2018-ci il, № 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 8, maddə 1705)** ilə yeni məzmunda 2.5 – 2.8-ci bəndlər əlavə edilmişdir.